# "BƏRDƏ PEŞƏ LİSEYİNİN MODERNLƏŞDİRİLMƏSİ" LAYİHƏSİ




"Azərbaycanda peşə təhsili və təlimi mərkəzlərinin modernləşdirilməsi" Proqramı çərçivəsində hayata keçirilən "Bərdə Peşə Liseyinin modernləşdirilməsi" layihəsi 2017-ci ilin oktyabr ayından icra mərhələsindədir. Layihənin ilkin dövründə Liseyin rəhbər heyəti arasında aparılan qiymətləndirmə nəticəsində güclü və zəif tərəflər müəyyənləşdirilərək müvafiq təlimlər keçirilib. Sonrakı mərhələdə daima yeniləşən əmək bazarında ən çox tələb olunan peşələri müəyyənləşdirmək məqsədi ilə rayonda və yaxın 5 rayonda sahibkarlarla (işəgötürən) görüşlər keçirilib, daha çox ehtiyac olunan peşələrin məlumat toplusu hazırlanaraq 6 oktyabr 2018-ci il tarixdə rayon mərkəzində təşkil edilən regional yığıncaqda təqdim edilib. Yığıncaqda Avropa İttifaqının səfiri, Təhsil nazirinin müavini, Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəhbər heyəti, Bərdə Rayon İcra Hakimiyyətinin Başçısı, ətraf rayonların peşə təhsili müəssisələrinin rəhbərləri, işəgötürən təşkilatların nümayəndələri iştirak edib.

Layihənin həyata keçirilməsində əsas məqsəd qabaqcıl Avropa ölkələrinin standartları və təcrübəsinə uyğun olaraq Bərdə Peşə Liseyində peşə təhsili və təliminin modernləşdirilməsi olmuşdur. Layihədə qarşıya qoyulan vəzifələr:

- liseydə modern idarəetmə sistemi yaratmaq; yeni təhsil proqramı (kurrikulum) hazırlamaq; liseyin davamlı fəaliyyəti üçün maliyyə resursları səfərbər etmək; liseyin rəhbər və mühəndis-pedaqoji heyətinin texniki bacarıqlarını daha da təkmilləşdirmək; liseyin mövcud maddi-texniki bazasının modernləşdirilməsinə töhfə vermək; liseyi qabaqcıl Peşə Karyera Mərkəzi kimi tanıtmaq.